***Bu gün dünyada hökm sürən qeyri-sabitlik, xalqların və ölkələrin dinc qonşuluq şəraitində yaşamalarına göstərilən təhdidlər dövlətlərin öz potensiallarını inkişaf etdirməsini, vətəndaşların rifahını yaxşılaşdırmasını çətinləşdirir. Azərbaycanda isə vəziyyət göz önündədir: hər yerdə tikinti-quruculuq işləri gedir, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa layihələri sürətlə aparılır. Eyni zamanda, respublikamızda insan amilinə mühüm önəm verilir, həyat şəraitinin daha da yaxşılaşdırılması üçün müvafiq proqramlar uğurla icra edilir. Bütün bunlar isə, şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi sosial siyasətin, insanlara göstərdiyi diqqət və qayğının, gündəlik nəzarətin bariz ifadəsidir.***

# Yeni “Çəmbərəkənd” parkı Bakının simasını daha da gözəlləşdirir

Dövlətimizin başçısının paytaxtın Səbail rayonunda yeni salınmış “Çəmbərəkənd” parkında yaradılan şəraitlə tanış olması da vurğulanan fikrin daha bir təsdiqidir.

Ölkə rəhbərinə bu istirahət məkanı haqqında məlumat verilərək bildirilib ki, paytaxtın Həsən Seyidbəyli



küçəsində istifadəsiz ərazidə salınan “Çəmbərəkənd” parkında yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb.

Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin burada müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil genişlənib. Son illərdə paytaxt sakinlərinin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb.

Dövlətimizin başçısının təşəbbüsü ilə paytaxtın Səbail rayonunda salınan “Çəmbərəkənd” parkı da onlardan biridir. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir.

“Çəmbərəkənd” parkının istifadəyə verilməsi bir neçə cəhətdən diqqət çəkir. Bu, ilk növbədə, sosial layihələrin uğurla həyata keçirilməsindən, mədəni sahənin inkişafına daim diqqət yetirilməsindən xəbər verir. Eyni zamanda, ölkə rəhbərinin həm sosial sektorun ayrı-ayrı sahələrinə göstərdiyi həssas münasibətin, həm də dövlətin iqtisadi gücünün mövcudluğunun parlaq ifadəsidir.

Bu gün Prezident İlham Əliyevin göstərişləri ilə Azərbaycanın hər bölgəsi gözəlləşir, abadlaşır, müasirləşir, dünyanın ən inkişaf etmiş, sabit diyarlarından birinə çevrilir. Ölkə başçısının tikinti-quruculuq və abadlıq işlərinin zövqlə, günün tələbləri səviyyəsində aparılmasına dair tapşırıq və tövsiyələri təsərrüfat subyektlərinin üzərinə böyük məsuliyyət qoyur. Məhz buna görədir ki, son zamanlar respublikada aparılan abadlıq-quruculuq və yenidənqurma işləri göz oxşayır, şəhər, kənd və qəsəbələrin simasına əlavə yaraşıq gətirir. Ölkə Prezidenti İlham Əliyev çıxışlarının birində deyib: “Bilirsiniz ki, mən paytaxtda gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən, mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən biridir”.

Prezident İlham Əliyevin son illərdə tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası daha da genişlənib. Bu tədbirlərin tərkib hissəsi olaraq yeni parkların yaradılması, mövcud istirahət məkanlarının isə müasir səviyyədə yenidən qurulması geniş vüsət alıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahətinin hərtərəfli təşkili baxımından böyük rol oynayır. Bütün bunlar, eyni zamanda, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları vurğulayırlar. Əhaliyə xidmət göstərən bu kimi müasir layihələrin icrası son illərdə dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin real nəticəsidir.

Bakı şəhərində abadlıq-quruculuq işləri, şəhərin infrastrukturunun yenilənməsi, yol, nəqliyyat və digər infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində aparılan sistemli və ardıcıl işlər hazırda uğurla davam etdirilir. Paytaxtın abadlaşdırılmasına ərazilərin təmizlənməsi, binaların fasadlarının yuyulması və s. təmizlik xidmətlərinin göstərilməsi də daxildir. Peşəkar və məsuliyyətli menecerlər və bağbanlar komandası xidmət göstərmək üçün öz bilik və təcrübələrindən, həmçinin qabaqcıl texnologiyalardan istifadə edirlər.

Dövlət başçısının maddi, mədəni-mənəvi rifahın yaxşılaşdırılmasına yönəldilən geniş miqyaslı islahatları



içərisində qəzalı vəziyyətdə olan tarixi-memarlıq yaşayış binalarının da əsaslı şəkildə təmiri nəzərdə tutulub. Bir neçə gün bundan əvvəl Bakıda “Şərq bazarı” kompleksinin bərpa və yenidənqurmadan sonra istifadəyə verilməsi də bunun əyani nümunəsidir.

Xatırladaq ki, nadir memarlıq üslubuna görə, “Şərq bazarı” 2001-ci ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilsə də, 2017-ci ildə aparılmış əsaslı müayinə işləri nəticəsində aşkar edilib ki, fərqli təyinatlı ticarət obyektlərinin fəaliyyəti, kor-təbii formada həyata keçirilən davamlı istismar və baxımsızlıq binada ciddi zədələnmələrə, çatlara, aşınmalara, korroziyaya və deformasiyalara səbəb olub. Məhz bunları nəzərə alaraq kompleksin istismar göstəricilərini yaxşılaşdırmaq, davamlılığını artırmaq, normal işləmə qabiliyyətini təmin etmək məqsədilə mühəndis tədbirlərinin həyata keçirilməsi zərurəti yaranıb.

Əsaslı müayinədən sonra dərhal detallı layihələndirmə prosesinə başlanılıb və 2020-ci ildə bərpa işlərinə start verilib. Onu da qeyd edək ki, “Şərq bazarı” ötən əsrin 80-ci illərində paytaxt sakinləri üçün doğma məkana çevrilib. Yenidən qurulan “Şərq bazarı” kompleksi şəhərimizin gözəlliyinə gözəllik qatıb.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***